# Dünyada maraqla izlənilən Şuşa Qlobal Media Forumu




## *Dövlət başçısının Xankəndidə çıxışı, jurnalistlərin suallarına cavabları böyük rezonans yaradıb*

***Xankəndi də beynəlxalq əməkdaşlıq və fəal regional dialoq məkanına çevrilir. Burada keçirilən yüksəksəviyyəli forum, konfrans və işgüzar tədbirlər şəhərin regional əhəmiyyətini və iqtisadi potensialını bir daha nümayiş etdirir. Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumu ölkəmizin qlobal məsələlərə ciddi yanaşmasını göstərir. Beynəlxalq media nümayəndələrinin iştirakı ilə artıq 3-cü ildir ki, Şuşa Qlobal Media Forumu keçirilir.***

Bu, Forumun beynəlxalq müstəvidə mötəbər platforma olduğunu bir daha təsdiqləyir. Xüsusilə, Prezident İlham Əliyevin Azərbaycan və Cənubi Qafqazda reallaşan layihələrlə bağlı səsləndirdiyi fikirlər, verdiyi proqnozlar dünyada maraqla izlənilir.

Bu mühüm tədbir informasiya və media mühitində gedən qlobal proseslər fonunda Azərbaycanın təşəbbüskar və proqressiv yanaşmasının daha bir təzahürüdür. Foruma 52 ölkədən 140-a yaxın xarici qonaq, o cümlədən 30-dan çox informasiya agentliyi, 7 beynəlxalq təşkilat və 80-ə yaxın media qurumu qatılıb. Artıq Azərbaycanın təşəbbüsü ilə qlobal mövzuların müzakirə olunduğu toplantıların Qarabağda keçirilməsi ənənə halını alıb. Bu, həm Azərbaycan reallıqlarının beynəlxalq təbliği, həm də Qarabağda həyata keçirilən sürətli bərpa-quruculuğun bütün dünya tərəfindən tanınması baxımından mühüm əhəmiyyətə malikdir. Qarabağ bölgəsində aparılan bərpa işlərinin miqyası haqqında daha dolğun məlumat əldə etmək üçün forum çərçivəsində iştirakçıların Ağdam rayonuna və Xocalıya səfərləri oldu. İşğaldan azad edilmiş Xankəndidə ilk dəfə keçirilən Qlobal Media Forumu Azərbaycanın informasiya suverenliyini, postmünaqişə reallıqlarını və yeni dövrün çağırışlarına cavab vermək əzmini dünyaya nümayiş etdirdi. Bu tədbir sadəcə jurnalistlərin toplantısı deyil, həm də Qarabağın mərkəzindən yüksələn qlobal mesaj idi.

Budəfəki Forumda da Prezident İlham Əliyev beynəlxalq media nümayəndələrinin suallarını cavablandırdı. Həm Cənubi Qafqazda gedən geosiyasi proseslər, eyni zamanda, qlobal dünya gündəmini əhatə edən mövzular müzakirə olundu. Dövlət başçısı beynəlxalq media nümayəndələrinə açıq və şəffaf mesajlar verdi, regionda sülhün və əməkdaşlığın real ünvanının məhz Azərbaycan olduğunu vurğuladı.

**(davamı 6-cı səhifədə)**










# Dünyada maraqla izlənilən Şuşa Qlobal Media Forumu




## *Dövlət başçısının Xankəndidə çıxışı, jurnalistlərin suallarına cavabları böyük rezonans yaradıb*

**(əvvəli 1-ci səhifədə)**

Prezidentin vurğuladığı əsas məsələlərdən biri də informasiya təhlükəsizliyi və qərəzli media kampaniyalarına qarşı mübarizə idi. Azərbaycanın beynəlxalq informasiya məkanında getdikcə daha fəal rol oynaması bu baxımdan strateji əhəmiyyət daşıyır. Forumda dövlətimizin başçısı dezinformasiyaya qarşı dövlətin prinsipial mövqeyini, informasiya təhlükəsizliyinin beynəlxalq gündəmdə ön plana çıxarılmasını xüsusilə diqqətə çatdırdı. Bildirdi ki, müasir dövrdə yanlış narrativlər və dezinformasiya dövlətlərin reputasiyasına, iqtisadi münasibətlərə və ictimai rəyə birbaşa təsir göstərir. Azərbaycanın informasiya siyasəti, xüsusilə Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Forumda müxtəlif xarici ölkələrdən gələn media və ekspertlərin iştirakı Azərbaycanın informasiya diplomatiyasında yeni mərhələyə qədəm qoyduğunu göstərdi. Xankəndinin beynəlxalq intellektual əməkdaşlığın, qlobal dialoqun, texnoloji və informasiya mübadiləsinin mərkəzinə çevrilməsi dünyaya mesajdır. Qlobal çağırışlara cavab olaraq Azərbaycanın informasiya məkanı süni intellekt və rəqəmsal texnologiyaların yeni imkanları ilə təchiz edilib. Forumda irəli sürülən təklif və təşəbbüslər, aparılan diskussiyalar Azərbaycanın mövqeyini daha da möhkəmləndirəcək.

Prezident İlham Əliyevin uzaqgörən liderliyi sayəsində Azərbaycan təkcə enerji və nəqliyyat sahəsində deyil, eyni zamanda, informasiya, rəqəmsal texnologiyalar və media təhlükəsizliyi istiqamətində də beynəlxalq səviyyədə etibarlı tərəfdaşa çevrilib. Məhz dövlətimizin başçısının iradəsi və siyasi qətiyyəti nəticəsində son illər informasiya təhlükəsizliyinin təmin olunması, milli media sisteminin inkişafı və rəqəmsal suverenliyin qorunması istiqamətində mühüm islahatlar həyata keçirilib. Qlobal çağırışlara cavab olaraq Azərbaycanın informasiya məkanını süni intellekt və rəqəmsal texnologiyaların yeni imkanları ilə təchiz etməsi, bu sahədə strateji baxış ortaya qoyması Prezident İlham Əliyevin ölkəmizin gələcəyinə hesablanmış inkişaf kursunun tərkib hissəsidir. Forumun məhz Xankəndidə keçirilməsi isə həm rəmzi, həm də siyasi baxımdan olduqca dəyərlidir. Bu torpaqlar artıq təkcə tarixi-mədəni irsimizin deyil, eyni zamanda, beynəlxalq intellektual əməkdaşlığın, qlobal dialoqun, texnoloji və informasiya mübadiləsinin də mərkəzinə çevrilir. III Şuşa Qlobal Media Forumunun işinin ilkin nəticələri və qısa müddətdə beynəlxalq mediada yaratdığı təəssürat deməyə əsas verir ki, burada səslənən bəyanatların, mülahizələrin rezonansı onlarla ölkənin ictimaiyyəti, yüzlərlə "beyin mərkəzi" üçün əlahiddə maraq kəsb edir.

"Bu gün regionumuz, Mərkəzi Asiya regionu, Cənubi Qafqaz, ondan Şərqdə və Qərbdə yerləşən ölkələr sabit dövlətlərdir. Xüsusilə də Qarabağ münaqişəsi başa çatandan sonra sabitlik, təhlükəsizlik və inkişaf üçün perspektivlər daha aydın və genişdir". Forumda bu fikirləri səsləndirib. Dövlət başçısı bildirib ki, bu bağlılıq layihələrinin təşviqi baxımından mühüm amildir. İkinci amil qonşularla xoş münasibətlərdir. Bu olmadığı təqdirdə ölkə tranzit ölkə ola bilməz və burada qonşularımızla deyil, qonşularımızın qonşuları ilə də yaxşı münasibətlərə malik olmalıyıq. Bu sahədə də fəal diplomatik fəaliyyət aparılır və bizim etibarlı tərəfdaş imicimiz var.

Prezident İlham Əliyev Xankəndindən dünya ictimaiyyətinə çağırışında Azərbaycanın dünyada baş verən "yeni düzən" layihəsində harada mövqe tutacağı və gələcəkdə hansı proseslərin baş verəcəyi barədə bir neçə istiqamətlər açıqladı. Ölkə rəhbərinin toxunduğu önəmli bir istiqamət Cənubi Qafqazda sülh şəraitində yaşmağın vacibliyi idi. Azərbaycanın enerji və nəqliyyat sahələrindəki strateji rolu da ön plana çəkildi. Cənub Qaz Dəhlizi və Zəngəzur dəhlizi kimi təşəbbüslər Azərbaycanın regional enerji və logistik təchizat mərkəzi mövqeyini möhkəmləndirir. Bu layihələr həm Avropa enerji təhlükəsizliyinə töhfə verir, həm də Cənubi Qafqazda iqtisadi inteqrasiyanı stimullaşdırır. Prezident İlham Əliyev Zəngəzur dəhlizi ilə bağlı qeyd etdi ki, Ermənistanın qeyri-konstruktiv yanaşması onu proseslərdən təcrid edə bilər. Bu isə regionda güc balansının getdikcə Azərbaycanın xeyrinə dəyişdiyini göstərir. Dövlət başçısı ABŞ Prezidenti Donald Trampın Cənubi Qafqazdakı prosesləri diqqət mərkəzində saxlamasını yüksək qiymətləndirdi. ABŞ Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndidə III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündəki çıxışından paylaşım edib.

Zəngəzur dəhlizinin açılmasının vacibliyi və bu dəhlizin dünyada sülhə, təhlükəsizliyə və iqtisadi inkişafa verəcəyi töhfələr diqqət göstərilən məsələrdən biri olub. Belə ki, Prezident İlham Əliyev bununla bağlı ünvanlanan suala cavabında qeyd etdi ki, Zəngəzur dəhlizi bir çox ölkələri birləşdirəcək. Daşımaların bu dəmir yolu və ya avtomobil yolu ilə həyata keçirilməsinin zəruriliyindən danışarkən, təkcə Azərbaycanın əsas hissəsinin onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsi nəzərdə tutulmur. Söhbət beynəlxalq tranzit dəhlizdən gedir. Ölkəmiz nəqliyyat və logistika infrastrukturuna milyardlarla dollar sərmayə yatırılıb. Xəzər dənizində ən böyük beynəlxalq ticarət limanı tikilib. Onun yükqaldırma qabiliyyəti 25 milyon tona çatdırılır. Gürcüstandan keçməklə Azərbaycanı Türkiyə ilə birləşdirən dəmir yolu xətti çəkilib. Müasir infrastrukturun qurulması nəticəsində Azərbaycan ərazisindən tranzit daşımaların həcmi artır. Həmçinin rəqəmsallaşma prosesi gedir, gömrük inzibatçılığı sadələşdirilir. Bu, həm də regionumuzda baş verən geosiyasi dəyişikliklər, digər tranzit marşrutların problemli hala gəldiyi bir vaxtda baş verir. Ona görə də bütün bunları nəzərə alaraq, Zəngəzur dəhlizinin potensialı ilkin mərhələdə 15 milyon ton yük səviyyəsində qiymətləndirilir. Prezident İlham Əliyev onu da qeyd etdi ki, bu yol Azərbaycanı Ermənistan ərazisindən keçərək Naxçıvan Muxtar Respublikası ilə birləşdirir və oradan Körfəzə çıxış yolu ilə İran ərazisinə keçir. Yəni, Zəngəzur dəhlizinin reallaşması ilə biz mahiyyət etibarilə Şimal-Cənub dəhlizinin başqa istiqamətini açacağıq.

"Zəngəzur dəhlizi təkcə Azərbaycan, Ermənistan və Türkiyə üçün deyil, regionun digər dövlətləri üçün də faydalı olacaq". Bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şimali Kiprdən qayıdarkən təyyarədə jurnalistlərə açıqlamasında bildirib. Vurğulayıb ki, bu dəhlizi geoiqtisadi ölçüsünə görə son dərəcə vacib hesab edirik. Həqiqətən də bu xətt regionumuzdan kənarda yerləşən coğrafiyaları birləşdirəcək və ticarəti stimullaşdıracaq. Əsas gözləntimiz bu xəttin fikir ayrılığı deyil, konsensus simvoluna çevrilməsidir. Bununla da region əməkdaşlığın üstünlük təşkil etdiyi çiçəklənən bir əraziyə çevriləcək. İnanıram ki, biz region ölkələri olaraq konsensus yolu ilə bu məsələni həll edə bilərik: "Azərbaycan Prezidenti İlham Əliyev Zəngəzura böyük önəm verir. O, bu dəhlizin tez bir zamanda hazırlanmasını və ondan həm Azərbaycanın, həm də regionun xeyrinə istifadə etmək istəyir. Əminəm ki, biz bu məsələni birlikdə həll edəcəyik".

Praqmatizm üzərində qurulan bu siyasi xətt Azərbaycanı həm Qərb, həm də Şərq istiqamətində manevr qabiliyyəti olan aktora çevrilmişdir. Bu siyasət nəticəsində ölkəmiz müxtəlif enerji, nəqliyyat və təhlükəsizlik layihələrində strateji tərəfdaş kimi çıxış edir. Azərbaycan, həm Avropa İttifaqı ilə enerji sahəsində dərin əməkdaşlıq edir, həm də Çin, Rusiya, Türkiyə, Mərkəzi Asiya və İslam dünyası ilə balanslı və qarşılıqlı faydalı münasibətləri qoruyur. Ölkəmiz artıq təkcə Cənubi Qafqazın deyil, daha geniş regionların təhlükəsizlik və iqtisadi arxitekturasında sözünü deməyə hazır olan müstəqil və çoxvektorlu siyasət yürüdən dövlət statusuna yüksəlir. Azərbaycan və Çin iki mühüm sənəd imzalayıb: Keçən il Strateji Tərəfdaşlıq, bu il Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Bəyannamə. Rəsmi Bakı Sədr Si Cinpinin "Bir kəmər, bir yol" təşəbbüsünü əvvəldən dəstəkləyib və artıq Azərbaycan ərazisində müvafiq nəqliyyat və logistika infrastrukturu hazırlanıb. Azərbaycan və Çin arasında ümumvətəndaş pasportlarına malik vətəndaşlar üçün qarşılıqlı vizasız rejim haqqında saziş apreldə Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı imzalanıb. Saziş şəxsiyyətlərarası təmasların möhkəmlənməsinə, eləcə də hər iki ölkənin tələbələri və sahibkarları arasında əlaqələrin inkişafına töhfə verəcək.

Ümumiyyətlə, son illər Azərbaycanın ən aktual qlobal problemlərin həllində ön sıralarda yer alması dünyada qəbul edilmiş bir faktdır. COP29 kimi qlobal sammitdən sonra gələn il Dünya Şəhərsalma Forumunun da Bakıya həvalə edilməsi bunun təsdiqidir. Rəsmi Bakının missiyası yalnız müzakirələrə ev sahibliyi, moderatorluq etməklə bitmir - Azərbaycanın təşkil etdiyi beynəlxalq tədbirlər və ya irəli sürdüyü təşəbbüslər dünyanı narahat edən ciddi problemlərlə bağlı səylərin birləşdirilməsinə, mübahisəli məsələlərin həllinə öz töhfəsini verir. Buna misal olaraq COVID-19 pandemiyası zamanı Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə BMT-də inkişaf etməkdə olan ölkələrə qarşı "peyvənd millətçiliyi"nin aradan qaldırılmasına yönəlmiş qətnamələrin qəbulunu, ötən il Bakıda keçirilmiş COP29 sammitində iqlim maliyyələşməsinə dair tarixi konsensusun əldə edilməsini və bir çox başqa qlobal qərarları göstərmək mümkündür.

Azərbaycan regionun "yaşıl enerji" və dayanıqlı infrastruktur əlaqəliliyi mərkəzinə çevirilməyə yönəlmiş iddialı strategiya həyata keçirir. Reallaşdırılan layihələr, o cümlədən "yaşıl infrastruktur" Azərbaycanda və Gürcüstanda istehsal olunan bərpaolunan enerjinin Avropa bazarlarına çatdırılmasına yönəlib. Bu əməkdaşlıq yalnız qonşu ölkələrlə məhdudlaşmır. Azərbaycan Macarıstan, Rumıniya və Bolqarıstanla, eyni zamanda Azərbaycandan




şərqdə yerləşən regionlarla, xüsusilə Mərkəzi Asiya ölkələri ilə də fəal əməkdaşlıq edir. "Yaşıl enerji"nin inkişafı üçün əlverişli normativ-hüquqi bazanın yaradılması istiqamətində atılan addımları da qeyd etmək lazımdır.

Dövlətimizin başçısı növbəti dəfə açıq şəkildə bəyan etdi ki, sülh sazişinin imzalanması üçün Ermənistan konstitusiyasında dəyişiklik edilməli və Azərbaycana qarşı ərazi iddialarına son verilməlidir. Eyni zamanda, artıq funksiyasını itirmiş ATƏT-in Minsk qrupunun da ləğvi zəruridir. Dövlət başçısı bildirdi ki, sülh sazişinin əsas mətni artıq razılaşdırılıb və bu sənədin paraflanma mərhələsi də Azərbaycan tərəfindən təklif olunub. Bu isə onu göstərir ki, Azərbaycan tərəfi regionda uzunmüddətli sabitliyin və əməkdaşlığın bərqərar olması üçün səmimi şəkildə sülhə çalışır. Ermənistan da əgər doğrudan da sülh istəyirsə, bunu yalnız bəyanatlarda deyil, əməli addımlarda göstərməlidir. Azərbaycan liderinin Rusiya-Ukrayna məsələsində tutduğu mövqeyi bir daha dilə gətirməsi diqqət çəkdi. Ukraynalı jurnalistə cavabında dövlət başçısı "işğalla barışmayın" dedi. Bu, Ukrayna xalqının azadlıq mübarizəsinə verilən dəstəkdir. AZAL-ın təyyarəsinin qəzaya uğramasından 7 ay keçməsinə baxmayaraq, hələ də Rusiya rəsmilərindən cavab verilməyib. Dövlət başçısı qeyd etdi ki, Rusiya tərəfi təyyarənin qəzaya uğramasında günahlarını etiraf etməli, günahkarları cəzalandırmalı, AZAL-ın təyyarəsinə görə təzminat verilməlidir.

Azərbaycanın bundan sonra regional təhlükəsizlik və sülhün təmin olunması yolunda hansı addımları atacağı, enerji siyasətinin necə olacağı, bu və ya digər ölkələrlə münasibəti, perspektivdə nələrin göründüyü kimi çoxsaylı regional və qlobal xarakterli suallara Prezidentin verdiyi cavablar dövlətimizin baxışları və mövqeləri barədə aydın təsəvvürlər yaradır. Bu da ölkəmizlə daha səmərəli əməkdaşlıq imkanlarını ortaya qoyur. Prezident İlham Əliyevin Forumda səsləndirdiyi hər fikir, verdiyi hər cavab xalqın iradəsi, dövlətin hüquqi mövqeyi və ədalətin səsi idi. III Şuşa Qlobal Media Forumu süni intellektin doğurduğu informasiya çağırışları fonunda beynəlxalq səyləri birləşdirmək, dezinformasiyaya qarşı mübarizədə ənənəvi medianın imkanlarını gücləndirmək üçün unikal bir platforma hesab oluna bilər. Belə əhəmiyyətli beynəlxalq media tədbirinin paytaxt Bakıda deyil, məhz Şuşada keçirilməsi ənənəsi Azərbaycanın informasiya savaşında hücum taktikasının davamı kimi qiymətləndirilir. Builki forum çərçivəsində Prezident İlham Əliyevlə jurnalistlərin görüşünün Şuşa şəhərində deyil, Xankəndidə təşkili də məhz postmünaqişə dövrünün proaktiv informasiya siyasətinin elementidir. erməni işğalının acı nəticələrini və Azərbaycanın apardığı intensiv bərpa-quruculuq işlərini dünyaya nümayiş etdirir ki, bu da rəsmi Bakının bölgədə sülh və sabitliyin möhkəmlənməsinə çalışması barədə mesajıdır.

**Mustafa KAMAL,**
**"Respublika".**